**Dövlət notariat kontorlarına**
**və xüsusi notariuslara**

Məlumat üçün bildirilir ki, "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinə əsasən notariat hərəkətləri ilə bağlı sənədlərin surətləri, habelə notariat hərəkətləri barədə məlumatlar vəkilə onun yazılı sorğusu və orderi əsasında verilir.

Qanunvericiliyin tələbinə görə vəkillər öz müvəkkillərinə hüquqi yardım göstərmək üçün onlarla müqavilə bağlayıb order alırlar. Hüquq məsləhətxanasında vəkillərə verilən orderlər müdirin möhürü və imzası ilə təsdiqlənir, fərdi vəkillər isə orderləri özləri imzalayırlar.

Vəkillər Kollegiyasının 15.08.2005-ci il tarixli qərarı ilə vəkilin səlahiyyətini təsdiq edən orderin forması təsdiq edilmişdir. Hər bir order unikal nömrəsi olan sənəddir.

Təcrübədə məhkəmə təmsilçiliyi ilə bağlı orderin əsli məhkəmələrə təqdim olunduqdan sonra məhkəmədə baxılan iş ilə bağlı vəkillər sübutların toplanılması məqsədilə, notariat kontorlarına sorğu verilməsi üçün həmin orderlərin surəti ya məsləhətxana müdirləri, ya da fərdi vəkillər tərəfindən təsdiq edilib, notariusa təqdim olunur.

Göstərilənlərə əsasən, vəkil qurumlarının müdirləri və ya fərdi qaydada fəaliyyət göstərən vəkillərin özləri tərəfindən təsdiq edilmiş orderlərin surətləri əsasında notariat hərəkətləri ilə bağlı sənədlərin surətlərinin, habelə notariat hərəkətləri barədə məlumatların vəkillərə verilməsinin təmin edilməsi tapşırılır.

Əlavə məlumat almaq üçün 404-42-20 nömrəli telefonla əlaqə saxlamaq olar.

**Notariat idarəsinin rəisi**
**baş ədliyyə müşaviri** **Mehman Soltanov**